ADB News Release
AZERBAIJAN RESIDENT MISSION, ASIAN DEVELOPMENT BANK

96 Nizami Street, 4th Floor
Landmark Building
Baku AZ1000, Azerbaijan
Tel + 994 12 496 58 00

# Asiya İnkişaf Bankı Azərbaycana Ayrılan LİBOR Əsasında Kreditlər üzrə Aşağı Faiz Dərəcəsini Tədbiq Edir

**Azərbaycan, Bakı (7 dekabr, 2005) –** Bu gün Asiya İnkişaf Bankının (AİB) Azərbaycandakı Daimi Nümayəndəliyi Azərbaycana ayrılan qeyri-güzəştli kreditlərin faiz dərəcəsini LİBOR üstəgəl 0.08 % (LİBOR + 0.08 %) təşkil etdiyi barədə məlumat vermişdir. Çox əlverişli olan bu faiz dərəcəsi maliyyə vəsaitlərini LİBOR-dan aşağı səviyyədə cəlb edilməsində AİB-ın imkanlarını, eləcə də inzibati xərclərin aşağı olmasını əks etdirir.

AİB-nın Azərbaycan üzrə direktoru Metyu Vestfol demişdir: "Azərbaycanın inkişafı yolunda əsas tərəfdaş kimi, biz bu ölkədə fəaliyyət göstərən çoxtərəfli inkişaf qurumları arasında ən rentabelli bank kimi xidmət göstərməkdən məmnunluq duyuruq və qarşılıqlı maraq kəsb edən əsas sektorlarda Azərbaycan ilə əməkdaşlığın genişləndirməsinə ümid edirik".

Hal-hazırda AİB Azərbaycan Höküməti ilə 2005-2006-cı illər üzrə yenidən baxılmış Ölkə Strategiyası və Proqramını müzakirə edir və dövlət sektoruna 300 milyon ABŞ dollarından artıq kredit proqramı və 7.8 milyon ABŞ dolları həcmində texniki yardım proqramı təklif edir.

AİB Azərbaycanda təhsil, energetika, mikromaliyyə, yollar, məcburi köçkünlər, regionların inkişaf etdirilməsi, su təchizatı, sanitar vəziyyətin yaxşılaşdırılması məsələlərinə diqqət yetirir. Asiya İnkişaf Fondunun şərtlərinə uyğun olaraq (AİF) 8-illik möhlət hüququ da daxil olmaqla 32-illik ödəmə müddətini, möhlət müddəti zamanı 1% faiz ödənişi və ödəmə vaxtı isə 1.5% -i əhatə edən, təklif olunmuş proqram üzrə 54.25 milyon məbləğində imtiyazlı ödəmə təklif olunur.

Borcalanların sürətli inkişaf tələblərinə daha yaxşı xidmət etmək məqsədilə, AİB son zamanlarda öz maliyyə imkanlarını genişləndirmişdir. Çox–tranş maliyyə kreditləri hal-hazırda uzunmüddətli yatırım proqramları və ya ümumi sxemə əsaslanan kredit mexanizmi imkanları verir. Borcalanın tələbat və hazırlığından asılı olaraq, kredit müxtəlif tranşlar ilə verilə bilər. Bu AİB və borcalana fəaliyyətin inkişafına diqqət verməyə imkan verir. Kredit vəsaitindən komissiya xərclər tutulmadığından borcalan da mənfəət əldə edəcəkdir. Əlavə olaraq, hal-hazırda AİB torpağın alınması, başqa ərazidən keçmə hüququ üçün ödənişlər, yerli vergi və rüsumlar da daxil müxtəlif növ layihə xərclərini maliyyələşdirə bilir.

AİB Azərbaycanda sellərə qarşı tədbirlər, şəhər su təchizatı və sanitariya təchizatını əhatə edən, ümumi həcmi 52 milyon olan kredit layihələri həyata keçirməkdədir. Digər layihələr AİB Direktorlar Şurası tərəfindən tez bir zamanda nəzərdən keçiriləcək.

Davamlı iqtisadi artım, social inkişaf və səriştəli idarəetmə vasitəsilə Asiya və Sakit Okean bölgəsində yoxsulluğun azaldılması AİB-in ən mühüm vəzifəsidir. AİB 1966-cı ildə təsis edilib və onun baş idarəsi Manilada yerləşir. 64 ölkə AİB-in üzvüdür, bunlardan 46 Asiya və Sakit Okean bölgəsi ölkələridir. 2004-cü ildə AİB cəmi 5.3 milyard ABŞ dollar həcmində kreditlər və 196.6 milyon ABŞ dollar həcmində texniki yardım qrantları təsdiq edib.

*****